# "Nəsimi İli"nə növbəti dəyərli ərməğan: Ədəbiyyat İnstitutunda "Son səfər" təntənəsi



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Nəsimi İli" çərçivəsində Milli Məclisin deputatı, tanınmış yazıçı- dramaturq Hüseynbala Mirələmovun "Son səfər" kitabının təqdimatı və müzakirəsi keçirilib.**

Toplantını AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan edilməsini dahi mütəfəkkirin yaradıcılığına verilən yüksək dəyər və ehtiramın göstəricisi kimi qiymətləndirib: "Məhz bu Sərəncamın icrası istiqamətində respublikamızda və onun hüdudlarından kənarda şairin yubileyi münasibətilə silsilə tədbirlər keçirilib, o cümlədən AMEA-da Nəsimi ilə bağlı müxtəlif konfranslar, elmi sessiyalar təşkil edilib, şairin əsərləri 11 dildə nəşr olunub və alimlərimiz həmin əsərlərə müqəddimə və şərhlər yazıblar. Həmin silsilə tədbirlərdə xarici və yerli alimlərin, tanınmış ziyalıların iştirakı dahi Nəsimiyə xalq sevgisinin parlaq təzahürüdür".

İsa Həbibbəyli bildirib ki, hələ ulu öndər Heydər Əliyev tərəfindən Nəsimi irsinin sistemli tədqiqi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, məhz həmin illərdə görülmüş tədbirlər nəticəsində beynəlxalq aləmdə Nəsimi Azərbaycan şairi kimi tanıtdırılıb.

İmadəddin Nəsiminin Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyindən söz açan akademik "Nəsimi İli" çərçivəsində AMEA-nın institut və təşkilatları tərəfindən dahi şairin yaradıcılığına həsr olunan 25 kitabın nəşr edildiyini, onlardan 12-nin Ədəbiyyat İnstitutunun əməkdaşları tərəfindən hazırlandığını vurğulayaraq Nəsimi ilə bağlı nəşr edilən əsərlər içərisində tanınmış yazıçı Hüseynbala Mirələmovun "Son səfər" povestinin özünəməxsus yeri və dəyəri olduğunu diqqətə çatdırıb: "Son səfər" Nəsimi ilə bağlı yeni tarixi mərhələnin ilk parlaq bədii nümunəsi kimi olduqca əhəmiyyətlidir. Əsərdə Hüseynbala Mirələmovun Nəsimi mövzusuna ənənəvi yanaşmadan fərqli olaraq, azərbaycançılıq mövqeyindən müraciət etməsi, böyük sənətkarı hər cür dini-ideoloji baxışdan uzaq, həyati şəkildə, təbii insan obrazı kimi oxuculara çatdırması cəsarətli addım hesab olunmalıdır. Yazıçı Nəsiminin həyatı və fəaliyyətinin hürufilik mücahidliyi dövrünü deyil, sadə və kamil insan həyatı yaşamaq mərhələsini qələmə alıb".

Akademik İsa Həbibbəyli müəllifin "Son səfər" povestini Nəsimiyə ideya-estetik mövqedən yeni baxış təşəbbüsü kimi qiymətləndirib. Əlavə edib ki, yazıçı bu povestində şair-mütəfəkkir Nəsimini hər şeydən əvvəl XX əsrin ikinci yarısının ədəbiyyatında yaradılmış ideal insandan daha çox təbii və real kamil insan kimi təsvir edib. Tədbirin "Ey Nəsimi, cahanı tutdu sözün..." mövzusunda II beynəlxalq elmi konfransın tərkib hissəsi olduğunu vurğulayan AMEA-nın vitse-prezidenti əsərin Azərbaycan nəsimişünaslığına dəyərli töhfə olduğunu qeyd edib: "Povestin yüksək səviyyədə alınmasının bir səbəbi də Hüseynbala Mirələmovun müraciət etdiyi dövrü və şəxsiyyətləri dərindən araşdırıb öyrənməsi ilə əlaqədardır. Povestin əvvəlində "Müəllifdən" rubrikası ilə proloq əvəzi kimi verilmiş "İki cahanın günəşi" yazıçı axtarışı, tədqiqatyönlü cəlbedici bir essedir. Bu, həm də tarixi mövzuda əsər yazan yazıçının məsələyə nə qədər ciddi yanaşdığını, zəruri axtarışlar apardığını nümayiş etdirir. "Son səfər" povesti Hüseynbala Mirələmovun çoxillik yaradıcılığının qanunauyğun məntiqi yekunu kimi meydana çıxmışdır. Bədii əsərlərində yazıçının zəngin həyat təcrübəsindən gələn hadisələri və obrazları çoxplanlı şəkildə təqdim etmək və proseslərə müxtəlif yönlərdən baxaraq reallıqları təfərrüatlarına qədər aydınlaşdırmaq prinsipi bu povestdə də özünü aydın surətdə göstərir. Bədii xüsusiyyətlərini arxa plana keçirmədən deyə bilərik ki, "Son səfər" povesti İmadəddin Nəsiminin dövrü, həyatı və müasirləri haqqında tədqiqat əsəri təəssüratı da yaradır. Bədiilik baxımından isə bu povest ilk növbədə tarixi ruhda yazılmış olan mükəmməl ədəbi əsərdir. Bu, ideya və sənətkarlıq cəhətdən müstəqillik dövrü Azərbaycan ədəbiyyatının mühüm nailiyyətlərindən biri sayılmağa layiq olan əhəmiyyətli və ibrətamiz əsərdir. Nəhayət, "Son səfər" povesti təkcə onun müəllifinin deyil, bütövlükdə Azərbaycan ədəbiyyatının "Nəsimi İli"nə dəyərli ədəbi töhfəsidir".

Professor Salidə Şərifova "İmadəddin Nəsimi "Son səfər"də" mövzusunda məruzəsində "Son səfər" povestinin dahi Nəsiminin həyatının bir məqamının müəllif interpretasiyasından keçirilərək təqdimatı ilə diqqəti cəlb etdiyini önə çəkib: "Hüseynbala Mirələmov "Son səfər" povestində milli şüurun formalaşmasında, həmçinin onun ümumbəşəri dəyərlərdəki rolunun balansını göstərməyə nail olaraq, bədii düşüncənin vacib faktoru kimi İmadəddin Nəsiminin ədəbi portretini yaratmağa nail ola bilir. Yazıçı Nəsiminin obrazı ilə yanaşı, şairin yaşadığı müəyyən bir mühitin və həmin dövrdə baş verən siyasi olay və hadisələri açıqlaya bilib. Əsas üslub xüsusiyyəti kimi povestə İmadəddin Nəsimi lirikasının daxil edilməsidir. "Son səfər" povestində Nəsimiyə olan sui-qəsdlərin hazırlanması faktları müəllif tərəfindən geniş epizodlarda açıqlanıb. Ədibin povest janrına müraciət etməsi İmadəddin Nəsimi həyatında şairin yaradıcılığının özünəməxsus konkret aspektini göstərmək niyyətindən irəli gəlir. Hüseynbala Mirələmov "Son səfər" povestində milli şüurun formalaşmasında, həmçinin onun ümumbəşəri dəyərlərdəki rolunun balansını göstərməyə nail olaraq, bədii düşüncənin vacib faktoru kimi İmadəddin Nəsiminin ədəbi portretini yaratmağa nail ola bilib. Yazıçı İmadəddin Nəsiminin obrazı ilə yanaşı, şairin yaşadığı müəyyən bir mühitin və həmin dövrdə baş verən siyasi olay və hadisələri açıqlayıb".

Professor İslam Qəribli "Hüseynbala Mirələmovun "Son səfər" əsəri" məruzəsində sözügedən povesti nəsimişünaslıqda mühüm mərhələ kimi dəyərləndirərək əsəri bütövlükdə Azərbaycan ədəbiyyatının önəmli uğuru kimi səciyyələndirib.

Özbəkistan Elmlər Akademiyası Ədəbiyyat, Dil və Folklor İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Erqaş Oçilov çıxışında dahi mütəfəkkir Nəsiminin vasitəsilə tanınmış Azərbaycan yazıçısı Hüseynbala Mirələmovun yaradıcılığı ilə tanışlığının baş tutduğundan məmnunluğunu bildirərək "Son səfər"i çox bəyəndiyini, əsəri özbək dilinə tərcümə etmək arzusunu ifadə edib.

Tədbirdə professor Qəzənfər Paşayev, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Tacikistan Dövlət Dillər İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru Ruxşona Vosiyeva, filologiya üzrə fəlsəfə doktorları İlhamə Ağazadə və Aygün Bağırlı, fəlsəfə üzrə fəlsəfə doktoru Ariz Gözəlov, kitabın bədii redaktoru Sevinc Mürvətqızı çıxış edərək "Son səfər"i tarixiliklə bədiiliyin vəhdəti, eyni zamanda, dahi Nəsiminin yaradıcılığına və şəxsiyyətinə olan məhəbbətin mükəmməl ədəbi ifadəsi kimi dəyərləndiriblər.

Sonda Hüseynbala Mirələmov çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara dərin minnətdarlığını bildirib. Yazıçı "Son səfər" haqqında deyilən xoş sözləri gələcək yaradıcılığı üçün avans kimi qəbul etdiyini və oxucuların etimadına layiq yeni əsərlərlə onların görüşünə gələcəyini qeyd edib.

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

İki sahil.- 2019.-11 dekabr.-S.22.